

Zakir Bağır

# "Pis söz"

Hekayə

-Salam ay Səriyyə xala. Nərgiz hazırdır?

-Salam qızım, gəl həyətə.

-Sağ mol, Səriyyə xala. Elə burada gözləyərəm.

-Nərgiz, ay Nərgiz.

-Nədir, ana?

-Rəfiqən səni gözləyir.

-Gəlirəm ana.

Çox çəkmədi, Nərgiz həyətə düşdü. İki rəfiqə bir-biri ilə mehribancasına görüşüb yola düşdülər.

-Ay Səriyyə, gör məktəb illəri nə tez keçdi. Artıq uşaqlarımız böyüyüblər.

-Elədir, illər göz qırpımında keçir.

-Qızın o qızla çoxdan dostluq edir?

- Hə, sinif yoldaşım. Bir xəstəxanada işləyiblər. Müxtəlif şöbələrdə.

- Eşitdim qızını nişanlandırmısan?

- Elədir.

- Xoşbəxt olsun. Məni toya çağırmağı unutma.

- Unutmaram. Bəs sənin oğlun nə edir? Onu nə vaxt evləndirirsən?

- Hələ Rusiyadadır. Onun üçün qız axtarıram. Çoxdandır o qızı sənin qızınla birlikdə görürəm.

Geyimi, hərəkətləri xoşuma gəlir. İndi bəzi qızlar elə geyinirlər....

- Hə, geyiminə fikir verən qızdır. Tibb bacısı olmasına baxmayaraq yaxşı dərzidir, toxuculuqla da məşğul olur. Payız aylarında qızımın əynindəki jaketi görmüsən?

- Əlbəttə, görmüşəm. Haradan almısan?

- Heç yerdən. O qız toxuyub. Ad günüdə qızıma bağışlayıb. Yaxşı xörək bişirməyi də var. Tibb bacıları günorta vaxtı evə gələ bilmirlər. Hərə özünə yemək aparır. Qızım rəfiqəsi ilə belə məsləhətləşiblər ki, növbə ilə yemək gətirsinlər. Qızım deyir ana, onun bişirdiyi xörəklərə söz ola bilməz.

- Qızın nişanlısı var?

- Yox, çalış oğlun tez gəlsin. İnanıram ki, oğlun da qızı bəyənər. Elçiliyə də mən gedərəm. Bir sinifdə oxumamışıq?

- ...Nərgiz soruşdu?

- Yasəmən, sizə xəstə tələbə qız gətirmişdilər. İndi necədir?

- İndi yaxşıdır. Qız bizim rayondakı universitetdə oxuyur. Yazıq möhkəm zəhərlənmişdir. Mədəsində də problem vardı. Bu günlərdə xəstəxanadan buraxılacaq.

- Yaxşı mən getdim. Günorta görüşərik.

- Hələlik.

Yasəmən şöbəyə daxil oldu. Tibb bacıları otağında xalatını geydi. Şöbə müdirindən bəzi tapşırıqlar alandan sonra tələbə qızın yatdığı palataya girdi. Tələb qızın çarpayının yanında üç nəfər oturmuşdu. Qız onlara nəysə danışırdı. Qapı açılan kimi hamı qapıya tərəf baxdılar.

-Dediyim tibb bacısı bu qızdır.

-Üçü də ayağa qalxdılar. Tələbə qız onları Yasəmənlə tanış etdi.

-Bu mənim atamdır, bu anam, bu da qardaşım.

Ana Yasəməni qucaqlayıb öpdü:

-Sağ ol, qızım səndən çox razılıq edir.

-Borcumuzdur.

-Oturun, ayaq üstə qalmayın.

Ata, ana və qardaş əyləşdilər.

-İndi bu dərmanı qəbul eylə, - Yasəmənin saatına baxdı. Bir saatdan sonra iynə də vuraram. Daha başın fırlanmaz.

Yasəmən palatadan çıxdı.

- Rəfiqə olmuşuq. Mənə, elə xəstələrə də çox yaxşılıq edib. Mədəmi yuyanda onun paltarlarını batırdım. Fikirləşdim ki, məni danlayacaq. Amma belə olmadı. Anası soruşdu:

- Nə yemişdin?

- Dönər.

- Yəqin ət köhnə imiş?

Yasəmən də bunu dedi:

- Qızın adı Yasəməndi?

- Bəli, ana. Mənim üçün evlərindən sulu xörəklər gətirirdi. Özü bişirirdi. Bilirsən necə dadlı idi?

Qardaşı ayağa qalxdı. Gedim maşını xodlayım.

Qardaşı palatadan çıxdı.

Atası soruşdu:

- Əməliyyat olacaq?

- Şöbə müdiri deyir ki, ehtiyac yoxdur. Bir müddət pəhriz saxlamalısan. Nə yeməliyəm onu da yazıb.

Tələbə qız siyirmədən bir kağız parçası çıxardıb atasına göstərdi. Ana da kağıza baxdı.

- Daha tibb bacısını narahat etməyə dəyməz.

- Bu yeməkləri evdə bişirərəm.

- Onlar ayağa qalxdılar.

- Qızımız onu nahaq yerdə tərifləmirdi. Qanacaqlı qızdır. Kaş belə gəlinimiz olaydı.

- Əsas oğlanın fikridir.

- İnanıram ki, oğlumuz da razı olar.

Tələbə qızın ata-anası müəllim idilər. Ona görə də qızların yanına hər gün gələ bilmirdilər. Tələbə qız bir bacı idi, bir qardaş, qardaşı hansısa bankın filial müdiri idi. O tez-tez bacısına dəyirdi.

- Qaqaşımın işlədiyi bankın sizin rayonda da filialı var. İşlə əlaqədar tez-tez buraya gəlir.

Qardaşı növbəti dəfə bacısına dəyəndə tələbə qız dedi:

- Qaqaş, haçana kimi subay gəzəcəysən? Axı, mən qardaş toyunu görmək istəyirəm.

- Könülümə qardaş toyunda oynamaq düşür. Həm oynamaq düşür, həm də rəfiqəmlə gəlin-balduz olmaq.

Tələbə qız, hiss edirdi qardaşının Yasəməndən xoşu gəlir. Yasəmənin də ona meyli olduğunu bilirdi.

- Demək təzə rəfiqənlə gəlin-balduz olmaq istəyirsən?

- Əlbəttə, istəyirəm.

- Ata-anamızın fikri necədir? Onların xeyir-duası lazımdır.

Tələbə qız sevincək qardaşının üzünü öpdü.

Tələbə qızın müalicəsi yaxşı nəticə verdi.

Həkim qızın xəstəxanadan çıxmasına icazə verdi. Amma tapşırdı ki, bir müddət pəhriz saxlasın.

Tələbə qız sevindi. Qarşıda bayram gəlirdi. Bayramı xəstəxanada yox, evdə keçirəcəkdi.

... Telefon zəng çaldı. Yasəmən cib telefonunu çantasından çıxardıb baxdı. Tələbə qız idi zəng edən. O rəfiqəsini bayram münasibəti ilə təbrik etdi. Sonra bildirdi ki, valideynlərim sizə elçi gəlmək istəyirlər.

Yasəmən bu xəbəri anasına bildirəndə anası fikrə getdi. Artıq o hiss edirdi ki, qızı tələbə qızın qardaşına vurulub. Amma oğlanın uzaqda yaşaması onu açmırdı.

Zəng edib Bakıdan yaşayan oğlanlarıyla danışdı. Böyük oğlu bu xəbəri eşidəndə bacısını təbrik etdi və bildirdi ki, bir bacımız var. Toyun bütün xərcləri, cehiz almaq bizlikdir. İki qardaş bir bacının əziyyətini çəkə bilməz?

-Axı, onlar uzaqda yaşayırlar.

-Ay, ana dediyin rayon bizim rayondan 150 km uzaqdadır. Dünən bizim qonşu qızı Kubaya gəlin köçdü.

-Qubaya?

-Quba yox, Kuba. Fidel Kastronun vətəninə. Bir həftə bundan qabaq bir qonşu qızının Amerikaya gəlin köçürtdük. Heç bilirsən buradan neçə saatlıq yoldur. Təyyarə ilə 17 saatlıq. Hələ Almaniyaya, Türkiyəyə, İrana, İzrailə gəlin köçənləri demirəm.

Kiçik oğlan da bacısını təbrik etdi.

- Ana, böyük qardaşımla belə məsləhətləşmişik ki, nişanda bir neçə növ yerli yeməklər hazırlansın. Böyük qardaşımın dediyi kimi bütün xərclər bizim boynumuzadır.

- Bunun üçün çox sağ olun, balalarım. Amma...

- Nə amma, ay ana?

- Siz iki qardaş Bakıda yaşayırsınız. Neçə ildir ki, rayona gəlmirsiniz?

- Ay, ana o qədər iş-güc var ki... Keçən ay Bakıya gəlmişdin. Düzdür, çox qalmadın. Məgər gəlinlər sənə pis baxdılar?

- Yox, Allah onlara pis gün qismət eləməsin.

- Bacımız da hər məzuniyyətə çıxanda Bakıya gəlir. Bəlkə onun narazılığı var?

- Nə danışırsız,ay balalar? Gəlinlərdən çox razılıq edir.

- Bacınız deyir ki, gəlinlərlə tez-tez şəhərə çıxırıq. Mağazaları gəzirik. Mənim üçün xeyirli şeylər alırlar. Gəlinlər deyirlər ki, qız özünə indidən cehiz almalıdır. Bilirdim ki, qardaşlarım tapşırıb onlara.

Ana sevinirdi. Sevinirdi ki, uzun vaxtdan sonra hər iki oğlu rayona gələcək.

- ... Ay oğraş, neçə vaxtdır rayona gəlib babanı axtarmırdın.

Uşaq cavab vermədi.

- Ay, oğraş indi bibinin toyuna gəlmisən?

Uşaq dinmədi. Əmisi oğluyla birlikdə gizlənpaç oynamağa başladı.

- Ay, oğraşlar, paltolarınızı batırmayın.

- ... Həyətdə qoyulmuş samovar qaynayırdı.

- Ocaqlardakı xörəklərin xoş iyi ətrafa yayılırdı.

- Mizin üstündə bölgəyə məxsus meyvə-tərəvəz qoyulmuşdu. Kişi qonaqlar eyvanda, qadınlar isə otaqda oturmuşdular. İştaha ilə meyvə tərəvəz yeyirdilər. Çox çəkmədi ki, yerli adətə görə süfrəyə çay gəldi. Qadınlar bir-biri ilə, kişilərdə bir-biri ilə şirin söhbət edirdilər. Həyətdə oynayan uşaqlar yuxarı qalxdılar. Böyük uşaq babasına yaxınlaşdı:

- Ay, oğraş mən harada oturum?

Atası ona necə şillə vurdusa o yerə yıxıldı:

-Bu pis sözdü.

-Pis sözdü niyə babam mənə deyir?

Böyük oğlan hirslə atasına baxdı.

Kiçik uşaq a barmağını babasına tərəf uzatdı:

-Oğraş.

Kiçik qardaş da onu döymək istədi.

-Uşağı belə döyməzlər.

-Onlarda nə təqsir...

Başqa bir qonaq barmağını dodaqlarının üstündə qoydu. Yəni sus. Məclisə pərtlik düşdü. Kişilər bir-biri ilə pıçıldaşmağa başladılar. Sonra ayağa qalxdılar.

-Hara gedirsiniz? İndicə süfrəyə şirin çay gələcək, sonra da yeməklər...

-Ona cavab verən olmadı.

-Biz gedəsi olduq.

-Ünvanı səhv salmışıq.

-Qadınlar da durdular

Həyətdəki maşınlara mindilər.

Hər iki uşaq analarının ətəyindən tutmuşdular:

-Burada qalmaq istəmirik. Evimizə getmək istəyirik.

Yasəmən hönkür-hönkür ağlayırdı.